Yaxın günlərdə doktor Xaqani Hüseynovun 70 yaşı tamam olmuşdur. O, tibb elmləri namizədi, Respublikanın Əməkdar həkimidir. Urologiya sahəsində aparıcı mütəxəssislərdən biridir.

Doktor Xaqani Rusiya, Ukrayna, Türkiyə, İran və bir sıra digər ölkələrdə elmi konfranslarda iştirak etmiş, maraqlı elmi məruzələri ilə tibb ictimaiyyətinin diqqətini cəlb etmişdir.

Xaqani Hüseynov həssas və ehtiyatlı adamdır. O, heç vaxt tələsməz və heç bir yerə gecikməz. Onun üçün verdiyi sözün yüngülü, ağırı yoxdur, onu yerinə yetirmək əzmi var. Özü də təmənnasız. Sutkanın hansı vaxtında, gecə və ya gündüz - zəng etsən həmişə diqqətlə qulaq asar və düzgün məsləhət verər.

Ona müraciət edənləri heç vaxt ümidsiz qaytarmaz. Problemi ya həll edər, ya çətinliyin həllinə şərik olar. O, bütün hallarda onlara dözümlü, səbirli olmağı məsləhət görər. Ona görə də onunla həm el-obası, ailəsi, həm də onunla ünsiyyətdə olan insanlar fəxr edirlər.

Xaqani Hüseynov hər bir işdə yaxşılıq, hər kəsdə müsbət cəhət axtarıb tapır. Vəziyyətdən

## *Xaqani Hüseynov - 70*



# ZAMANA SIĞMAYAN ÖMÜR

və məqamdan asılı olmayaraq, doğrunu dəstəkləyir. O yaxşı bilir ki, bununla cəmiyyətə xidmət etmiş olur. Haqlı olanları təqib, təzyiq, hədə, şər-böhtandan məharətlə qoruyur. O bununla yaxşılığın tarixini yazdırır. Əməli ilə gənclərə nümunə olur. Ürəyindəki gözəl hisslərlə gəncləri tərbiyələndirir.

Doktor Xaqani Hüseynovun həyatı zamanla ölçülmür. O, həm bugünün, həm də sabahın adamıdır. O, bu günü əməlləri ilə yaşayır. Nəsillərin və tarixin yaddaşında qalanlardandır. Dövlətə və xalqına etdiyi xidmətin, istəyin bariz nümunəsidir. Doktor Xaqani Hüseynov əsl insan və gözəl sənətkar kimi bütün müsbət xüsusiyyətləri özündə cəmləşdirib və yaşadır. Allah beləllatını kamil insan kimi bəşəriyyətə nümunə yaradıb. Ona cansağlığı, 100 il sağlam yaşamağı arzulayıram.



***Şəddat CSSFSSROV,***
***respublikanın ilk poliqrafçı alimi, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü.***

Kredo.- 2020.- 30 yanvar.-S.14